# AZƏRBAYCAN İLƏ BEYNƏLXALQ OLİMPİYA AKADEMİYASI ARASINDA BEYNƏLXALQ TƏHSİL SAHƏSİNDƏ ƏLAQƏLƏRİN MÖHKƏMLƏNMƏ YOLLARI

*p.e.d., prof. Dilqəm Quliyev*
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
*mr.quliyev.d@mail.ru*

**Nəşr tarixi**
Qəbul edilib: 1 oktyabr 2019
Dərc olunub: 5 noyabr 2019
©2019 ADBTİA.Bütün hüquqlar qorunur.

**Annotasiya**: Məqalədə Azərbaycan ilə Beynəlxalq Olimpiya Akademiyası arasinda beynəlxalq təhsil sahəsində əlaqələri möhkəmləndirmək, Olimpiya fəlsəfəsi və ideologiyasını dövlətlər və insanlar arasında yaymaq, bütün dünya üzrə Olimpiya əhval-ruhiyyəsinin yayılması və Olimpiya Hərəkatının prinsiplərinin təcəssüm edilməsi, beynəlxalq idman aləmində Azərbaycanı fəal ölkəyə çevirmək, bədən tərbiyəsi və idman hərəkatını genişləndirmək, bədən tərbiyəsi və idmanla məşğul olanların sayını ildən-ilə artırmaq, bədən tərbiyəsi və idmanın qızlar arasında daha geniş və təsirli inkişafına nail olmaq, sağlamlıq imkanları məhdud olan insanların (əlillərin) daha çox hissəsini bədən tərbiyəsi və idmanla məşğulluğa cəlb etmək, bütün regionlarda, xüsusən kənd rayonlarında idmanın inkişafı üçün spesifik əməli tədbirlərin planlaşdırılması və həyata keçirilməsi, imkansız ailələrdən olan uşaq və yeniyetmələrin bədən tərbiyəsi və idmanla daha kütləvi, ödənişsiz məşğul olmalarına şəraitin yaradılması, onların idmanda qalmaları və uğur qazanmaları, bununla da həyatlarını zənginləşdirə bilmələri üçün konkret tədbirlərin planlaşdırılması və həyata keçirilməsinin təmin edilməsi və başqa problemlər öz həllini tapmışdır.

**Açar sözlər:** Beynəlxalq Olimpiya Akademiyası, Avropa Olimpiya Komitəsi, Milli Olimpiya Akademiyası, Avropa Oyunları, Olimpiya Hərəkatının prinsipləri, Olimpiya fəlsəfəsi və ideologiyası, Olimpiya Yay Məktəbi, məşqçi-müəllimlər, idman jurnalistləri, qədim Olimpiya kəndi, qərb təfəkkürünün tarixi, marafon qaçışları, heykəl, bədheybət, durğunlaşıb, "Olimpiya mükəmməlliyi", təhsil proqramları, müasir idman infrastrukturu, İdman akademiyası, Avropa ali təhsili, sağlam həyat tərzi, ədalətli oyun və davranış qaydaları, beynəlxalq əlaqələri möhkəmləndirmək.

Ölkəmizdə təhsilin dünya təhsil sisteminə, xüsusən ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası prosesini və Boloniya Bəyannaməsinin tələblərinin yerinə yetirilməsi sahəsində işləri sürətləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" 31 yanvar 2008-ci il tarixli sərəncam imzalanıb[7].

Azərbaycanda təhsilin dünya təhsil sisteminə və ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası prosesi geniş şəkildə araşdırmaq və nəticələrini qiymətləndirmək mühüm əhəmiyyət və aktuallıq kəsb edir.

Hər bir yeni yaradılan dövlətin, müstəqillik qazanmış bir respublikanın ən ümdə vəzifələrindən biri öz milli təhsil sisteminin yaradılmasına, bu sistemin sivil dövlətlərin təhsili səviyyəsinə yüksəldilməsinə nail olmaqdır. Müstəqillik əldə etdiyimiz dövrdən bəri yeni təhsil sisteminin təşkili, onun inkişafı dövlətçilik siyasətinin ən önəmli uğurlarından hesab edilməlidir.Təhsil islahatımızda yeni prinsiplərə, tələblərə tezliklə sirayət olunmalı, humanistləşdirmə, diferensiallaşdırma və fərdiləşdirmə yolları ilə pedaqoji təfəkkürü formalaşdırıb uğurlar, nailiyyətlər əldə edə bilərik.

Azərbaycan təhsili güclü maddi-texniki bazaya, kadr potensialına malikdir. Bu sahələrdə əldə olunmuş nailiyyətlər dünyanın sivil ölkələri ilə müqayisə olunmağa layiqdir. Artıq ölkəmiz getdikcə Avropa təhsilinə daha sürətlə inteqrasiya olunur. Bu gün Azərbaycan təhsili,

mədəniyyəti dünya sivilizasiyasına tam cavab verən səviyyədədir.

Tarixi reallıqlardan aydındır ki, Heydər Əliyev SSRİ dövründə, yəni Azərbaycan Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də bu məsələni daim diqqət mərkəzində saxlamış, eləcə də xalqımızın unudulmaz oğlunun rəhbərliyi ilə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılmışdır. Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi [2].

Ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır [2].

Xalqımızın ümummilli lideri Heydər Əliyevin bədən tərbiyəsi və idmana diqqəti və qayğısı nəticəsində 1970-1982-ci illərdə akademiyanın 37 idmançı kadrı Moskva və başqa ölkələrdə təhsil almış, müxtəlif mövzularda fəlsəfə üzrə elmlər doktorluq dissertasiyaları müdafiə etmişlər [3].

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ümummilli lider Heydər Əliyev deyirdi: "Azərbaycan xalqı irəlidə gedən xalqların arxasınca gedərək bəşəriyyətin əldə etdiyi elmi, texniki nailiyyətlərdən istifadə etməyə çalışıbdır. Bunun üçün də birinci növbədə öz milli təhsilini yaradıb... Bu, XX əsrdə bizim əldə etdiyimiz ən böyük nailiyyətdir. Çünki əgər xalqımız təhsillənməsəydi, savadlanmasaydı, nəhayət Azərbaycanın özünün milli ali təhsil müəssisələri, institutları, universitetləri yaranmasaydı, indi biz müstəqil olaraq bu cür böyük imkanlara malik ola bilməzdik..." [5].

Belə bir perspektivə görə inteqrasiya olunan ölkə özündə aşağıdakı komponentləri birləşdirməlidir: gələcək müəllimləri seçmə sistemi, baza pedaqoji təhsilin sertifikasiyası, müəllim peşəsinə giriş fazası, müəllimlərin peşə üzrə fasiləsiz inkişafı, müəllimlərin peşə üzrə ixtisaslarını artırma imkanları, tədqiqatlar səviyyəsində məktəbin inkişafında iştirak etmək.

Beynəlxalq Olimpiya Akademiyası 1929-cu ildə təsis olunmuş, lakin 1961-ci ilə qədər rəsmi olaraq təqdim olunmamışdır. Təşkilatın məqsədi bütün dünya üzrə Olimpiya əhval-ruhiyyəsinin yayılması və Olimpiya Hərəkatının prinsiplərinin təcəssüm edilməsidir. 1998-ci ildə isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında Milli Olimpiya Akademiyası yaradılmışdır. Akademiyanın prezidenti Azərbaycan Milli Olimpiya Komitəsinin baş katibi, millət vəkili, professor Ağacan Abiyevdir. Milli Olimpiya Akademiyası ölkəmizdə Olimpiya ideyalarını, sağlam həyat tərzini, ədalətli oyun və davranış qaydalarını gənclər arasında, ümumiyyətlə, əhali arasında təbliğ etməyi öz üzərinə götürmüşdür.

11-25 iyun 2013-cü il tarixdə Yunanıstanda Beynəlxalq Olimpiya Akademiyası tərəfindən təşkil edilmiş Gənc iştirakçıların 53-cü sessiyasında Azərbaycandan 6 nəfər iştirak edib. 02-13 avqust 2013-cü il tarixdə akademiyada Azərbaycandan 40 gənc məşqçi-müəllimlər, idman jurnalistləri, fəal gənclər və könüllülər üçün Olimpiya Yay Məktəbi təşkil olunub".

İyunun 12-də tədbirin açılış mərasimi keçirilmiş, iştirakçı ölkələrin təqdimatı

olmuşdur. Afinanın tarixi yerləri ilə qısa tanışlıqdan sonra iştirakçılar qədim Olimpiya kəndinə yola düşmüşlər. İngilis dilində təşkil edilmiş bu tədbirin əsas proqramı məhz Olimpiya kəndində həyata keçirilir. Afina oyunlarında marafon qaçışlarında iştirak edən idmançıların şərəfinə şüşədən düzəltdiyi "Qaçan insan" idi. Küləyin sovurduğu, didik-didik etdiyi insan. Maraqlıdır, adətən heykəllər hərəkətsiz



həqiqətən muzey-şəhərdir. Amma o yalnız Qərb təfəkkürünün tarixini yox, həm də bugününü gözəl əks etdirir. Belə ki, Afinanın küçələrində son dövrlərə aid qəribə heykəllər, fiqurlar görmək mümkündür. Bunlardan iki detal adamı dəhşətə gətirir: biri yunan heykəltəraşı Kostas Varotsosun Olimpiya olsalar da, onlarda bir həyat seçmək mümkündür. Amma bu heykəl əslində qaçan insanı təsvir etsə də, özü fərqli təsəvvür yaradırdı: nəhəng, amma küləyin bitirdiyi bir insan! Heykəl qeyri-standart ölçülü şüşələrdən olduğundan, bu 10 metrlik insan donmuş bir bədheybəti xatırladırdı.





İkinci detal isə şəhər boyu qoyulan insan bədəninin ayrı-ayrı hissələrinin – ayaqların, barmaqların, əllərin və s. fiqurları idi. İnsanı hissə-hissə daşda təsvir etmək və bununla diqqəti hərəkətə, plastikaya yönəltmək ənənəsi hələ fransız Oqüst Roden tərəfindən qoyulub. Qəribədir ki, "Düşünən insan"ı ilə məşhur olan heykəltəraş həm də başsız və əlsiz "Addımlayan"ın da müəllifidir. İndi bu ənənənin nəticələri Afinanın küçələrinə səpələnmişdi. Qəribədir, bu, ayrı-ayrı insan tikələri sanki daha canlı idi və bu, insanı dəhşətə gətirirdi.

Afinadakı bu iki detalı – iki yaradıcılıq əsərini tutuşduranda, ürəkdən yunan heykəltəraşlarına əhsən deyirik. Qərb insanını bu qədər dəqiqliklə yalnız qərbli özü təsvir edə bilərdi: bütöv insan çoxdan donub, durğunlaşıb, didilib; yaşayan, daha doğrusu, fəaliyyətdə, hərəkətdə olan isə ayrı-ayrı orqanlardır.



**Mükafatı Beynəlxalq Olimpiya Akademiyasının prezidenti İsidoros Kuvelos təqdim etdi.**

Sonra Olimpiya dəyərlərinin və prinsiplərinin təbliğindəki xidmətlərinə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidentinə Beynəlxalq Olimpiya Akademiyasının "Olimpiya mükəmməlliyi" xüsusi fəxri mükafatı təqdim olundu.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva çıxışında bildirdi ki, Beynəlxalq Olimpiya Komitəsi tərəfindən mükafata layiq görülmək və qədim yunan torpağında bu nüfuzlu mükafatı almaq mənim üçün böyük şərəfdir.

Bu gün sizin hamınızla birlikdə bu gözəl mərasimdə iştirak etmək məndə məmnunluq hissi doğurur. Beynəlxalq Olimpiya Akademiyasının prezidenti cənab İsidorosa və akademiyanın bütün üzvlərinə Olimpiya dəyərləri və prinsiplərinin təbliğində mənim fəaliyyətimə yüksək qiymət verdikləri üçün dərin minnətdarlığımı bildirmək istəyirəm.



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə çıxış etdi.**

Biz Azərbaycanda Olimpiya Akademiyasının Olimpiya dəyərlərinin qorunması, inkişafı və bütün dünyada paylaşılması işindəki nailiyyətlərini yüksək qiymətləndiririk. Biz birlikdə Azərbaycan gəncləri, eləcə də idmanla bağlı rəsmi şəxslər, Avropa gəncləri üçün təhsil proqramları hazırlamışıq. Biz "Bakı-2015" Təşkilat Komitəsinə dəstək göstərmək üçün birgə çalışırıq.

Bu gün Azərbaycan Beynəlxalq Olimpiya Hərəkatının fəal üzvüdür. İdmanın inkişafı, Olimpiya dəyərləri və ideallarının təbliği bizim ölkəmizin siyasətinin prioritetlərindən biridir. Müstəqilliyimizin bərpasından sonra biz Beynəlxalq Olimpiya Komitəsinin ölkəmizdə idmanın inkişafına verdiyi diqqəti həmişə hiss etmişik. Şəxsən Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxa bizim təşəbbüslərimizi dəstəklədiyi üçün təşəkkürümü bildirmək istəyirəm.

İdmançılarımızın uğurları, müasir idman infrastrukturu, idmançılara, idmanın inkişafına, idman ideyalarının təbliğinə göstərilən güclü dövlət dəstəyi, habelə ölkəmizin sürətli inkişafı 2015-ci ildə ilk Avropa Oyunlarının Azərbaycanın paytaxtı Bakıda keçirilməsi üçün Avropa Olimpiya Komitəsinin qərarına səbəb olan əsas amillərindən idi. Biz bu tarixi qərara görə Avropa Olimpiya Komitəsinə minnətdarıq. Baxmayaraq ki, Olimpiya Oyunlarının vətəni Avropa sayılır, digər qitələrlə müqayisədə Avropa Oyunları əvvəllər heç vaxt keçirilməmişdir.

Bizim üçün Avropa Oyunlarının təşkili milli qurur və məsuliyyət məsələsidir. Sizə onu deyə bilərəm ki, bu qərar Azərbaycan xalqı tərəfindən ciddi şəkildə dəstəklənmişdir. 2015-ci il ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin rəhbəri kimi, sizi əmin edə bilərəm ki, biz Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi, idmançılar və nümayəndə heyətlərinin üzvləri, qonaqlar və yerli vətəndaşlar üçün mükəmməl şəraitin yaradılması istiqamətində əlimizdən gələni edəcəyik. Əminəm ki, Oyunlar dostluq və həmrəylik ab-havasında keçiriləcəkdir.

Hörmətli dostlar, fürsətdən istifadə edərək yunan xalqına xoşbəxtlik və firavanlıq arzu edirəm. Yunanıstan qədim tarixə, mədəniyyətə və ənənələrə malik olan bir ölkədir. Yunanıstan xalqı əsrlər boyu öz mədəni və tarixi irsini bəşəriyyət üçün qorumuşdur. Mən çox şadam ki, Azərbaycan və Yunanıstan arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir və bir çox sahələri əhatə edir. Qarşılıqlı hörmət və tərəfdaşlıq əsasında

iqtisadi, siyasi, mədəni və digər sahələrdə əməkdaşlıq hər iki ölkəyə fayda verir. Biz yaxşı tərəfdaşıq və dostuq.

Sonda əziz dostlar, sizə bu nüfuzlu mükafatı mənə təqdim etdiyinizə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Fürsətdən istifadə edərək sizin hamınızı Avropa Oyunlarına dəvət edirəm və bizimlə birlikdə idman, həmrəylik və dostluq bayramından zövq almağınızı istəyirəm. Bir daha çox sağ olun. Sizə gələcəkdə uğurlar arzulayıram.



**17 noyabr 2014-cü il tarixdə Azərbyacan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (AzDBTİA) akt zalında "Olimpiya idmanının fizikası, kimyası və fəlsəfəsi” mövzusuna həsr olunmuş beynəlxalq elmi konfrans keçirildi.**



29 oktyabr 2015-ci ildə "İlk Avropa Oyunları Milli Olimpiya akademiyaları üçün yeni çağırışdır" mövzusunda Avropa Olimpiya Akademiyalarının ikinci beynəlxalq konfransı keçirilmişdir [6].

Tədbirin təşkilində məqsəd Olimpiya Hərəkatını təbliğ etmək, Olimpiya fəlsəfəsi və ideologiyasını dövlətlər və insanlar arasında yaymaq, beynəlxalq əlaqələri möhkəmləndirməkdır. Konfrans Azərbaycan Milli Olimpiya Akademiyası və Benəlxalq Olimpiya Akademiyası ilə birgə təşkil olunmuşdur. Məlum həqiqətdir ki, ilk analoji konfrans Almaniyada keçirilmişdir. Çıxışçılar bildirdilər ki, ölkəmizdə idmanın və Olimpiya Hərəkatının yüksək səviyyədə inkişaf etdiyini, respublikamızda bu sahəyə dövlət səviyyəsində diqqət və qayğı göstərildiyini bildirdilər. Çıxışçılar idmanın və bədən tərbiyəsinin gənclərin sağlam ruhda böyüməsində, onların fiziki və mənəvi tərbiyəsində rolundan danışdılar. Natiqlər ölkəmizin tarixdə ilk dəfə keçirilən I Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi etdiyini, bu Oyunların təşkilinin dünya idmanı və Olimpiya Hərəkatının inkişafında xüsusi rola malik olduğunu vurğuladılar. "Olimpiya Akademiyasının üzvləri bir ailədir. Akademiyanın gəncləri idmanla yanaşı, Olimpiya Hərəkatının inkişafında da fəal iştirak edirilər. Olimpiya hərəkatı özündə həmçinin elmi, mədəniyyəti birləşdirir".

Ölkəmizdə idmana dövlət səviyyəsində qayğı göstərilir. Gənclərin asudə vaxtının səmərəli təşkili və onların idmana cəlb olunması üçün mühüm layihələr həyata keçirilir. Təkcə paytaxtda deyil, regionlarda da beynəlxalq standartlara cavab verən Olimpiya İdman kompleksləri gənclərin istifadəsinə verilib. Bütün bunlar ölkəmizdə idmanın kütləviliyinin artırılmasına mühüm töhfə verir.

23 dekabr 2015-ci ildə ölkə Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Fuad Hacı oğlu Hacıyev Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru təyin edilmişdir.

Akademiyanın yeni rektorunun fəaliyyəti nəticəsində qısa müddətdə akademiyanın maddi-texniki bazası əhəmiyyətli dərəcədə dəyişilmiş, tədris yüksək səviyyədə təşkil olunmuş, tələbələrin dərsə davamiyyəti artmışdır.

Ali təhsilli bədən tərbiyəsi müəllimləri dedikdə özünün sağlam fiziki hazırlığı ilə yanaşı, fiziki tərbiyənin pedaqoji, psixoloji, fizioloji və tibbi aspektlərinə, habelə təlim metodlarına dərindən və hərtərəfli yiyələnmiş kadrlar nəzərdə tutulur. Əlbəttə yüksək ixtisaslı pedaqoji kadr hazırlamaq tarixən də, indinin özündə də asan məsələ olmamışdır.

İdman akademiyasının Avropa ali təhsil



məkanına inteqrasiyası məsələsində bir çox əhəmiyyət kəsb edən problem, perspektivlik və meyillər vardır. Birgə təhsil proqramları, xüsusilə ikili diplom dünyada universitetlərin əməkdaşlığının qanunauyğun mərhələsi kimi meydana çıxır. İdman akademiyasının və Avropa ali məktəblərinin birgə proqramlarının yaradılma siyasətinin və asılılığının təhlili göstərir ki, akademiya təhsil sisteminin inkişafı Avropa təhsil sistemindən asılılığının dəf olunmasının mövcudluğuna səbəb olur. Avropa universitetləri ilə idman akademiyasının birgə proqramlar hazırlamasında başlıca prioritetlərdən biri də yeni təhsil bazarına çıxış, tələbələrin cəlb edilməsinin genişləndirilməsi, diplomların əmək bazarında mövqe və tanınma dərəcəsinin gücləndirilməsindən ibarətdir. Eyni zamanda idman akedimiysının müəllim və tədqiqatçıları üçün daha əlverişli şərait yaradılması və akademiyanın ali beynəlxalq rəqabət qabiliyyətliliyinin möhkəmləndirilməsindən ibarətdir.

Beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 2016-cı ilin mart-avqust aylarında Akademiyanın Strateji Planlaşdırma üzrə İşçi Qrupunun üzvləri Belarus Dövlət Bədən Tərbiyəsi Universiteti, Acıbadəm Universiteti, Hacəttəpə Universiteti (42 438 tələbə), Mərmərə Universiteti (51 000 tələbə), İstanbul Universiteti (178 901 tələbə), Ankara Universiteti (66 555 tələbə), Sofiyada "Vassil Levski" Milli İdman Akademiyası, Köln Alman İdman Universiteti (6 000 tələbə), Şeffield Hallam Universiteti( 31500 tələbə) və Lyublyana Universitetinə (42 922 tələbə) səfər etmişlər [1].




**Akademiyanın rektoru Fuad Hacıyev Beynəlxalq Gimnastika Federasiyasının (FIG) prezidenti Morinari Vatanabeyə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "Fəxri doktor"u diplomunu təqdim edən zaman. 02.05.2017-ci il**




**Beynəlxalq Gimnastika Federasiyasının (FIG) prezidenti Morinari Vatanabe Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "Fəxri doktor"u adına layiq görülüb.**




**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında yeni ixtisaslar üzrə magistr qəbulu ilə bağlı mətbuat konfransında Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev Böyük Britaniyanın UCL-in (University College London) İdman, Məşq və Sağlamlıq İnistutunun məsləhətçisi, Royal Tibb Cəmiyyətinin İdman Tibbi və Reabiltasiya sahəsi üzrə vitse-prezidenti Mayk Luzmor iştirak edən zaman. 13 fevral 2017-ci il**







**United Kingdan İdman Jurnalistikası magistr proqramının rəhbəri Dan Mason İdman Akademiyasında magistr tələbələri ilə birlikdə.**

**Bakı, 2018. 30 yanvar-3 fevral**



**ADBTİA-nın bir qrup pedaqoqu Ankarada, Hacettepe Universitetinin İdman Elmləri Fakültəsinin əməkdaşlıqları ilə birlikdə.**



**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında IV İslam Həmrəylik Oyunlarında qalib gəlmiş akademiyanın tələbə idmançıları ilə akademiyanın rektoru Fuad Hacıyev görüş keçirən zaman. 27 may 2017-ci il.**



MDB, Baltikyanı və Gürcüstan ölkələrinin Milli Olimpiya Komitələrini təmsil edən qonaqlar akademiyada yeni təsis olunmuş magistr ixtisaslarının təlim-tədris prosesinin yaxşılaşdırılması üçün nəzərdə tutulan Multimedia Mərkəzi və Tibbi reablitasiya mərkəzləri nümayiş olunub. Multimedia mərkəzi ilə tanışlıq zamanı qonaqlar "İdman jurnalistikası" magistr proqramının dərs prosesinə də qatılıblar. Proqramın rəhbəri və müəllimi Dan Manson "İdman jurnalistikası" magistr ixtisası ilə bağlı qonaqlara məlumat verib. O bildirib ki, bu magistr proqramı Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası və Böyük Britaniya Birləşmiş Krallığının ən dinamik idman universiteti olan Şeffild Hallam Universiteti ilə birgə tərtib olunub. 2018




**İdman akademiyasında "İdman tibbi və reabilitasiya" ixtisası üzrə Böyük Britaniyanın UCL – London Kollec Universitetin – İdman Tibbi İnstitutunun aparıcı eksperti, Böyük Britaniyanın Kral Tibb Cəmiyyətinin İdman Tibbi bölməsinin vitse-prezidenti Dr. Maykl Pol Lusmor magistr tələbələrinə dərs deyən zaman. 6 noyabr 2017-ci il**




**Azərbaycan Milli Olimpiya Komitəsinin 25 illiyinə həsr olunmuş silsilə tədbirlərin 2-ci günündə MDB, Baltikyanı və Gürcüstan ölkələrinin Milli Olimpiya Komitələrini təmsil edən qonaqlar Azərbaycan  Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında olan zaman.**




**18 Noyabr 2019-cu il tarixində Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında  tədrisi ingilis dilində aparılan "İdman tibbi və reabilitasiya" və "İdman menecmenti" magistr proqramlarının ilk məzunlarına diplomların təqdimat mərasimi keçirildi . Qeyd edək ki, adı çəkilən ingilisdilli magistr proqramları Azərbaycanda və Cənubi Qafqaz regionunda ilk və yeganə olaraq Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında tədris olunur.**

Tədqiqatın məqsədi:

-Azərbaycan ilə Beynəlxalq Olimpiya Akademiyası arasinda beynəlxalq təhsil sahəsində əlaqələri möhkəmləndirmək;

- Olimpiya fəlsəfəsi və ideologiyasını dövlətlər və insanlar arasında yaymaq, ölkəmizdə Olimpiya Hərəkatını, ideyalarını, sağlam həyat tərzini, ədalətli oyun və davranış qaydalarını gənclər arasında, ümumiyyətlə, əhali arasında təbliğ etmək, beynəlxalq əlaqələri möhkəmləndirməkdir.

-bütün dünya üzrə Olimpiya əhval-ruhiyyəsinin yayılması və Olimpiya Hərəkatının prinsiplərinin təcəssüm edilməsidir.

Tədqiqatın vəzifələri:

a) beynəlxalq idman aləmində Azərbaycanı fəal ölkəyə çevirmək

- bədən tərbiyəsi və idman hərəkatını genişləndirmək, bədən tərbiyəsi və idmanla məşğul olanların sayını ildən-ilə artırmaq. Bədən tərbiyəsi və idmanın qızlar arasında daha geniş və təsirli inkişafına nail olmaq. Sağlamlıq imkanları məhdud olan insanların (əlillərin) daha çox hissəsini bədən tərbiyəsi və idmanla məşğulluğa cəlb etmək. Bütün regionlarda, xüsusən kənd rayonlarında idmanın inkişafı üçün spesifik əməli tədbirlərin planlaşdırılması və həyata keçirilməsi;

-imkansız ailələrdən olan uşaq və yeniyetmələrin bədən tərbiyəsi və idmanla daha kütləvi, ödənişsiz məşğul olmalarına şəraitin yaradılması, onların idmanda qalmaları və uğur qazanmaları bununla da həyatlarını zənginləşdirə bilmələri üçün konkret tədbirlərin planlaşdırılması və həyata keçirilməsinin təmin edilməsi;

b) hər üç səviyyədə-idmanla məşğul olmağa başlamaqda, idmanda qalmaqda və idmanda uğur qazanmaqda insanlara kömək etmək.

Yaşından, etnik mənşəyindən və ya sağlamlıq vəziyyətindən asılı olmayaraq hər kəsin idman fəaliyyəti dairəsinin genişləndirilməsi məsələsini həll etmək, idman və gənclər təşkilatlarının, klubların, məşqçilərin və könüllülərin dinamik şəbəkəsini yaratmaq və formalaşdırmaq, insanların idmanda qalması üçün davamlı infrastruktur yaratmaq;

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Qarşıya qoyulan məqsədi həyata keçirməklə Azərbaycan ilə beynəlxalq Olimpiya Akademiyası arasında beynəlxalq təhsilin inteqrasiyası, habelə yüksək dərəcəli kadrların hazırlığının müasir elmi bilik sistemində yeri, elmi quruluşu və bütövlükdə elmi sistemi aydınlaşdırılır.

Tədqiqat prosesində belə nəticəyə gəlmək olar ki, Azərbaycan ilə beynəlxalq Olimpiya Akademiyası arasında beynəlxalq təhsilin inteqrasiya sistemi tədqiq olunur.

**Ədəbiyyat:**

1. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında 2018-ci ildə aparılmış beynəlxalq əlaqələr haqqında hesabat (Əlyazmasında).

2. Quliyev D.Q. Azərbaycanda elm və təhsilin inkişafında ümummilli lider Heydər Əliyevin rolu (1969-2003). Məqalə. Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı , 2013. №2, s.207-210

3. Quliyev D.Q. Azərbaycanda elm və təhsilin inkişafında ümummilli lider Heydər Əliyevin rolu (1969-2003). Məqalə. Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı , 2013. №2, s.207-210

4. Quliyev D.Q. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının elmi-tədqiqat işlərinin inkişaf tarixindən. Məqalə. Təhsil ocağı. Elmi, metodiki və publisistik jürnal. Bakı, 2009 № 3-4, s.48-56.

5. «XX əsrin qan yaddaşı». «XX əsrin qan yaddaşı». Azərbaycan Texniki Universitetin mətbbəsi, Bakı, 1998.

6. Quliyev D.Q. Heydər Əliyev müasir idman tariximizdə. Monoqrafiya. “Soraq”MMC-nin mətbəəsi.Bakı, 2019 103 səh.

7. Respublika” qəzeti. “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında”. 31 yanvar 2008-ci il.

## Пути укрепления отношений между Азербайджаном и международной олимпийской академией в области международного образования

*д.п.н., проф. Кулиев Д.К.*
*Азербайджанская Государственная Академия Физического Воспитания и Спорта*
*mr.quliyev.d@gmail.ru*

**Аннотация:** Укрепление отношений между Азербайджаном и Международной Олимпийской Академией в области международного образования, распространение Олимпийской философии и идеологии между государствами и людьми, создание Олимпийского настроения во всем мире, воплощение принципов Олимпийского движения, превращение Азербайджана в активную страну в международном спортивном мире, расширение движения физического воспитания и спорта, увеличение количества занимающихся физическим воспитанием и спортом со дня на день, достижение широкого и эффективного развития физического воспитания и спорта среди женщин, привлечение людей с ограниченными возможностями (инвалидов) к занятиям физического воспитания и спорта, планирование и осуществление специальных практических мероприятий для развития спорта во всех регионах, особенно в сельских районах, создание условий для детей и подростков из малоимущих семей с целью организации массовых и бесплатных занятий физическим воспитанием и спортом, обеспечение планирования и осуществления конкретных мероприятий для удержания их в спорте и для мотивации в достижении успехов и этим обогащая свою жизнь, а также другие проблемы нашли свое решение в данной статье.

**Ключевые слова:** Международная Олимпийская Академия, Европейский Олимпийский Комитет, Национальная Олимпийская Академия, Европейские Игры, принципы Олимпийского движения, Олимпийская философия и идеология, Летняя Олимпийская Школа, тренеры-учителя, древняя олимпийская деревня, история мышления, марафонские бега, статуя, ужас, застой (стагнация), “Олимпийское мастерство”, образовательные программы, современная спортивная инфраструктура, Спортивная академия, европейское высшее образование, здоровый образ жизни, честная игра и правила поведения, укрепление международных отношений.

## Ways to strengthen relations between Azerbaijan and The International Olympic Academy in the field of international Education

*doctor of pedagogical sciences, professor D.G.Guliyev*
*Azerbaijan State Academy of Physical Training and Sport*
*mr.quliyev.d@gmail.ru*

**Summary.** Strengthening of the relations between Azerbaijan and the International Olympic Academy in the field of international education, the spread of Olympic philosophy and ideology between states and people, the creation of the Olympic mood throughout the world, the embodiment of the principles of the Olympic movement, the transformation of Azerbaijan into an active country in the international sports world, the expansion of physical training and sports, increasing of the number of people involved in physical training and sports from day to day, achieving a wide and effective development of physical training and sports among female, the involvement of disabled people (invalids) in physical training and sports, the planning and implementation of special practical measures for the development of sports in all regions, especially in rural areas, the creation of conditions for poor children and adolescents families with the goal of

organizing mass and free physical training and sports, ensuring the planning and implementation of specific activities to keep them in sports and motivate in achieving success enriching their own life, as well as other problems have been solved in this article.

**Key words:** International Olympic Academy, European Olympic Committee, National Olympic Academy, European Games, Olympic Movement Principles, Olympic Philosophy and Ideology. Olympic Summer School, coaching teachers, ancient Olympic village, history of thinking, marathon runs, sculpture, fright, stagnation, "Olympic excellence", educational programs, modern sports infrastructure, Sports Academy, European Higher Education, healthy lifestyle, fair play and rules of conduct, strengthening of international relations.

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN V-VI SİNİFLƏRİNDƏ ATLETİKA NÖVLƏRİNİN TƏDRİSİNİN TƏDQİQİ

*B\müəl. Əhmədov Q.Z., Dos. Ələkbərov Ə.İ., B\müəl. Aşirov M.A., B\müəl. Cəfərov C.X. ADBTİA-nın "Kütləvi-sağlamlıq idman növləri" kafedrası*
[qilinc-z@mail.ru](mailto:qilinc-z@mail.ru)

**Nəşr tarixi**

Qəbul edilib: 1 oktyabr 2019
Dərc olunub: 5 noyabr 2019
© 2019 ADBTİA. Bütün hüquqlar qorunur.

**Xülasə:** Məqalə fiziki tərbiyə dərslərinin səmərəli təşkilinin əlverişli forma və üsullarının axtarışına həsr edilmişdir. Tədqiqatın ilkin mərhələsi V-VI sinif şagirdlərinin fiziki hazırlıq səviyyələrinin və funksional göstəricilərinin tədqiqindən ibarət olmuşdur.
Ümumtəhsil məktəblərinin V-VI siniflərində atletika növləri üzrə bacarıq və vərdişlərin formalaşdırılması, hərəki qabiliyyətlərin inkişaf etdirilməsi zamanı hərəkətlərdən istifadə texnologiyasının yaradılmasına cəhd göstərilmişdir.
Alınan nəticələr iki amilin: hərəkətlərdən istifadənin struktur və hərəki qabiliyyətlərin tərkib komponentlərinə müvafiqliyinin tədris prosesində mühüm rol oynadığını aşkar etmişdir. Bu nəticədə fiziki tərbiyə dərslərinin məzmununu daha effektli qurulması üçün əsas ola bilər.

**Açar sözlər:** "motor sıxlığı", intensivlik, hərəki qabiliyyətlər, fiziki yük, bacarıqlar, vərdişlər, metod, üsul, icra rejimi

**Aktuallığı:** Azərbaycan Respublikasında ümumtəhsil məktəblərində aparılan islahatlar digər fənlərlə yanaşı fiziki tərbiyə fənninin də tədrisinin məqsəd və vəzifələrinin, məzmununun dəqiqləşdirilməsinə, onun tədrisi səmərəliliyinin artırılmasına şərait yaratmışdır [1,2, 6]. Bununla əlaqədar olaraq idman növlərinin şagirdlərin fiziki hazırlıq vasitəsi kimi istifadə olunması zamanı yeni forma və üsulların axtarılmasına ehtiyac duyulur. Hər şeydən əvvəl dərs prosesində idman növlərindən istifadənin yeni forması şagirdin dərsə olan marağını artırmağa, vaxt vahidi ərzində daha çox hərəkət və beləliklədə fiziki yük yerinə yetirməyə imkan verməlidir. Belə yanaşma zərurəti daha çox oyun növlərinə aid edilməyən atletika, gimnastika, qüvvə hazırlığı istiqamətli hərəkətlərin tətbiqində hiss olunur. Bununla əlaqədar olaraq atletika növlərindən istifadə texnologiyasının işlənib hazırlanması təcrübi əhəmiyyət daşıyan aktual problemdir.
**Tədqiqatın problemi:** Ümumtəhsil məktəblərində şagirdlərin fiziki hazırlığının yüksəldilməsi məqsədi ilə fəal təlim metodlarından istifadə mexanizminin müəyyənləşdirilməsidir.
**Tədqiqatın fərziyyəsi:** Ehtimal olunur ki, atletika növlərindən fiziki tərbiyə dərslərində istifadəsinin əlverişli forma və metodlarının müəyyənləşdirilməsi tədris prosesinin səmərəliliyinin artırılmasına və bununlada şagirdlərin funksional, fiziki hazırlıq səviyyələrinin yüksəlməsinə şərait yaratmış olacaqdır.
**Tədqiqatın obyekti:** Ümumtəhsil